**QALİB SAYILOV**
**AMEA Folklor İnstitutu**

# NOVRUZ BAYRAMININ FƏLSƏFİ VƏ RİTUAL ƏSASLARI

## (I məqalə)

Novruz bayramı YUNESCO-nun və BMT-nin Baş Məclisinin qərarı ilə Dünyanın qorunan qeyri-maddi irs və Beynəlxalq günlər siyahısına salınması xalqımızın mədəni həyatında müəyyən irəliləyişə səbəb olacaqdır. Hər il Novruz bayramında milli-mədəni ənənələrimiz beynəlxalq aləmdə nümayiş olunacaq. Bu da Azərbaycanın mərasim diplomatiyasının uğuru deməkdir.

Vaxtilə ümummilli lider Heydər Əliyev siyasi diplomatiya ilə paralel mərasim diplomatiyasına da önəm verirdi.

Ulu öndər Heydər Əliyevin xalq, vətən və dövlət naminə göstərdiyi böyük fəaliyyətinin nəticələri zaman keçdikcə daha aydın şəkildə görünməkdədir. Çünki bu fəaliyyət xalqın gələcəyi üçün uzaqgörənliklə düşünülmüş, ən yüksək dəyərlər səviyyəsində dəyərləndirilmiş və milli inkişafın strateji proqram sənədi kimi qəbul olunmuşdur. Bu proqram dahi rəhbərin ali düşüncələrindən keçmiş və kamil bir şəkildə tətbiq sferasına daxil olmuşdur. Öndərin milli quruculuq proqramı zamana və şəraitə uyğun olaraq həyata keçməkdədir. Öndər yaxın və uzaq hədəfləri elə dəqiqliklə müəyyənləşdirib ki, hər mərhələ öz zamanında aktuallaşır, gerçəkləşir və növbəti mərhələyə doğru inkişaf edir. Bu mənada öndərin əbədi miras qoyduğu strateji proqram törədici gücə malikdir. Belə ki, bu güc onun təməl prinsiplərində, onun əsaslarındadır.

Siyasi sferada öndərin əsasını qoyduğu əsas istiqamətlər demokratik dövlət quruculuğunu şərtləndirən dünyəvi, hüquqi prinsiplərə əsaslanılan müasir modellərdir. Dünyanın ən çox inkişaf etmiş ölkələrinin tarixi təcrübəsində sınanan demokratik modellər və hüquqi prinsiplər böyük öndərin dahi düşüncəsindən keçmiş, təhlil olunmuş və tətbiq üçün hazırlanmışdır. Ona görə də Azərbay-

can ən doğru bir demokratiya yolu ilə irəliləməkdədir. Bu yolun dönməzliyi mütləqdir. Cəmiyyətimiz azad, müstəqilliyimiz əbədidir. Hər bir çağdaş cəmiyyət üçün də müstəqilik və azadlıq ən mühüm demokratik dəyərdir. Azərbaycanın Avropaya inteqrasiyasının prinsipləri azərbaycançılığın baniləri tərəfindən irəli sürülsə də müstəqillik dövründə bu məsələlər yenidən aktuallaşır və Heydər Əliyev dühasının işığında aydınlaşır və millətin gələcəyinin daha da parlaq olması üçün möhkəm və sağlam zəmin hazırlayır.

Ulu öndər Heydər Əliyevin dövlət quruculuğunun əsasında milli-mənəvi dəyərlərin mükəmməl məcmusu dayanır və bütün fəaliyyətlərin və baxışların mənəvi prinsiplərdən çıxış edərək gerçəkləşdirildiyi görünməkdədir.

İctimai-mədəni həyatımızın elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin qurucu fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin.

Ulu öndərin dövlət quruculuğu dünyəvi demokratik prinsiplərlə milli əxlaq və milli-mənəvi dəyərlər sisteminin sintezini təşkil edirdi. Bütün strukturlar və fəaliyyət sahələri mənəvi təməllər üzərində qurulurdu. Belə fundamental quruculuq gələcək üçün daha effektli nəticələr alınmasını da təmin etmək üçün böyük uzaqgörənliklə düşünülmüş siyasətin tərkib hissəsini təşkil edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mənəvi quruculuq siyasəti görkəmli alim M.Cəfərli tərəfindən böyük ehtiramla belə xarakterizə edilir:

Ulu Öndərimiz, ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması, bərpası, tədqiqi, təbliği, dünyaya və gələcək nəsillərə çatdırılması sahəsində göstərdiyi fəaliyyətin sahəsi və miqyası olduqca genişdir. Bu möhtəşəm mədəni siyasətin əsasında insana, xalqa, millətə, vətənə və dövlətə olan böyük və sonsuz məhəbbət dayanır. Ulu Öndər həyatını dövlət quruculuğuna, onun müstəqilliyinə, müstəqilliyinin əbədiliyinə həsr etdi. Bu dövlətin təməlini Heydər Əliyevin bütün mümkün vasitələrlə qoruduğu və gələcək nəsillərə itkisiz və zədəsiz təhvil verdiyi milli-mənəvi dəyərlər təşkil edir. Bu dəyərlər isə Heydər Əliyevin qurduğu müstəqil, demokratik, hüquqi, dünyəvi dövlətin himayəsi ilə əbədi

yaşayacaq və Heydər Əliyev adını da bu dəyərlərin içində uca tutaraq sonsuz sevgi və dərin ehtiramla yaşadacaqdır.

Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunmasına 1969-cu ildə respublikaya rəhbər olduqdan başlamışdır. Rəhbərin milli dəyərlərə önəm verməsi bir çox əsl vətəndaş alimlərimizi də ürəkləndirmişdir. SSRİ imperiyasının təhdidlərinə baxmayaraq, ziyalılar bilirdi ki, H.Əliyev onları qoruyacaq. Belə məqamlardan biri də professor Azad Nəbiyevin 1989-cu ildə tərtib etdiyi nəfis illistürasiyalı "Novruz" kitabıdır. Kitabı novruza layiqli hədiyyə hesab edən mərhum xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Mirzə İbrahimov ön sözündə yazırdı:

"Bütün qadağalara baxmayaraq, xalq Novruzla əlaqədar bir-birindən zəngin, rəngarəng nəğmələrini, adətlərini, oyun və tamaşalarını yaşada bilmişdir. Tanınmış folklorşünasımız, filologiya elmləri doktoru, professor Azad Nəbiyevin böyük zəhməti nəticəsində müxtəlif illərdə yazıya alınmış bu nümunələr qorunub saxlanmış və bu gün oxuculara yüksək tərtibatda təqdim edilir. Kitabdakı Novruz nəğmələri, inamları, adətləri, oyun və tamaşaları bu bayram barədə geniş təsəvvür yaradır.

Novruz bayramına layiqli hədiyyə olan bu kitab eyni zamanda bayramın insanlara verdiyi sevinc və məhəbbəti ifadə edir.

Bizcə, kitabdakı müqəddimə və bir sıra başqa yazılar Novruz bayramının tarixi, humanist və optimist mahiyyəti barədə, onun keçdiyi yollar, müxtəlif xalqların həyatındakı rolu haqqında oxuculara lazımi təsəvvür verir. Kitabda bayram şənliklərinin bugünkü həyatla, yenidənqurma və aşkarlıq dövrünün irəli sürdüyü problemlərlə təbii əlaqəsi əks olunmuşdur. Əminik ki, təsərrüfat, siyasi-fəlsəfi, mənəvi-əxlaqi məsələlər əlbəttə ki bayram şənlikləri ilə üzvi surətdə əlaqələndiriləcək, müəyyən arzular, istəklər də doğacaqdır".

Milli folklorumuzun və Novruz bayramının yorulmaz tədqiqatçısı 10 ildən sonra 1999-cu ildə Novruza həsr olunmuş ikinci kitabı xalqımıza ərməğan verdi. Bu əsər Azad Nəbiyevin fundamental tədqiqatlarındandır. Həmin kitabı nəşr etməklə professor, Novruza yanlış məna verənlərə bir növ cavab vermişdir. Azad Nəbiyevin Novruzla bağlı elmi-nəzəri baxışları bizi də təmin edir.

Məlumdur ki, Novruz bayramının kökündə qədim xalq mərasimləri durur. Bu təkcə Novruza aid deyil.

Dünyanın bir sıra xalqlarının mərasimləri belədir.

Bayramlara ritual-mifoloji aspektdən yanaşıldıqda onların mərhələlərdən keçdiyini görürük. Professor H.İsmayılov bunu dörd mərhələyə ayırır:

1) Mif mərhələsi
2) Ritual mərhələsi
3) Mərasim mərhələsi
4) Bayram mərhələsi (1.3.3.).

Romalıların qədim "Saturnalia"sı mif mərhələsini xristianlar miladın IV yüzilində "Mövladi-İsa" bayramı kimi qeyd etməyə başladılar. Deməli, bu bayram mif mərhələsindən bayram mərhələsinə keçid almışdır. Buna bənzər yəhudilərin "Pesah" dedikləri, xristianların "pasxa" bayramı da kökü etibarilə ilk insanların təbiətə inandıqları zamanın didaktik davamından ibarətdir.

Novruz bayramı novruz sözündən qaynaqlanır. Bu sözün terminoloji əhatəsi çox genişdir. 1992-ci ildə mən Azad Nəbiyevdən çalışdığım qəzet üçün müsahibə götürəndə A.Nəbiyev Novruzun hərfi mənasını belə açıqlamışdır. "Novruz" – yeni gün deməkdir. Ancaq bəzən Novruza Ergenekon, Bozqurd, Çağan, Sultan Nevruz, Xan Novruz, Bahar bayramı, Yaz bayramı, Rüsxət günü, Yılbaşı, Gündönümü və s. demişlər.

Novruz bayram kimi qeyd olunan xalqların dilinin ahəng qaydalarına uyğunlaşdırılmışdır. Şərqi Türküstandan Balkanlara qədər Novruzun 25-ə yaxın adı mövcuddur.

Dövrümüzə qədər Novruz çox mötəbər mənbələrdə təsvir olunmuşdur. Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk", Əbu Reyhan "Asarul-Baqiye", Y.H.Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", N.Gəncəvinin "İsgəndərnamə", Nizamülmülkün "Siyasətnamə" əsərlərində novruzla bağlı məlumatlara rast gəlirik.

Biruninin müasiri olan mütəfəkkirlər Mahmud Kaşqarlı və Ömər Xəyyam Novruz haqqında müəyyən məlumatlar vermişdir.

Onların əsərlərində təkcə bu bayramın təbiətlə və onun qanunauyğunluqları ilə əlaqəsindən deyil, həm də onunla bağlı mərasimlər, sınamalar və rituallar haqqında bəhs edilir. Məsələn, Biruni belə bir sınama haqqında məlumat verir: "Əgər Novruzun ilk günü gün doğan vaxt hələ heç bir söz demədən üç qaşıq bal yesən və üç parça mum yandırsan bütün xəstəliklərdən xilas olarsan. Digər bir sınama isə belədir: "Hər kim səhər ibadətdən öncə bir az şəkər yesə və özünü zeytun yağı ilə yağlasa bütün il ərzində ona heç bir xəstəlik dəyməz".

Bu bayramdan bəhs edərək Biruni yazır: "İranlılarda belə bir adət var idi ki, Novruz günü bir-birinə şəkər verirdilər. Ona görə də Bağdad sakininin dediyinə görə Cəmşidin vətəni Azarbadda Novruz günlərində şəkər qamışı çıxır".

Qədim dövrlərdə Orta Asiya və İranda Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda dövlət bayramı kimi qeyd olunmuşdur. Tarixi məlumatlara görə insanları sosial qruplara görə bölürdülər, Novruz bayramı bir ay davam edirdi və hər qrupa beş gün ayrılırdı. Yəni hər bir sosial qrup bayramı onun üçün ayrılmış beş gündə qeyd edirdi. Məsələn, qədim İranda ilk beş gün padişaha, ikinci beş gün saray əyanlarına, üçüncü beş gün saray xidmətçilərinə və ali ruhanilərə aid olurdu. Padşah bayramın ilk beş gününü başlar, təbbələrini bir-birinə hörmət etməyə və xeyirxah olmağa çağırardı. İkinci gün padşah kəndlilərin və kübarların nümayəndələrini qəbul edərdi. Üçüncü gün süvariləri və möbidləri, dördüncü gün öz övladlarını, varislərini, beşinci gün isə sıravi təbbələrini qəbul edərdi. Altıncı gün əsas bayram sayılırdı və ona "Böyük Novruz" deyilirdi. Xarəzmlilər və soğdlarda Sasanilərin hakimiyyəti dövründə rəsmi Novruz bayramı ilə yanaşı digər bayramların keçirilməsi də elan edilərdi. Biruninin əsərində, Ömər Xəyyamın "Novruznamə"sində və digər qaynaqlardan aldığımız məlumatlara görə, Novruzda yerə su səpərlərmiş, yaxınlara hədiyyə verərmişlər, yelləncəkdə yellənərmişlər, şirniyyat paylayarmışlar, yeddi illik məhsulu müəyyənləşdirərmişlər, ritual yuyunması, çimməsi və digər mərasimlər icra edilərmiş. Novruz günündə padşahın süfrəsində (dəstərxan) buğda, arpa, darı, qarğıdalı, noxud, mərcimək, düyü, küncüt və ya lobya unundan hazırlanmış çeşidli

çörəklər düzərmişlər. Süfrənin ortasına yeddi cür ağacın (söyüd, zeytun, heyva, nar və s.) zoğunu, yeddi ağ piyalə, ağ dirhəm və ya yeni dinar qoyarmışlar. Padşah üçün ağ şəkərdən və təzə süd və xurma əlavə edilmiş kakos qozundan xüsusi yemək hazırlayarmışlar. Müasir dövrdə də İranda Novruz bayramı süfrəsinə ərəb hərfilə s ilə başlayan yeddi cür yemək qoyulur. Süfrədə turş və təzə süd, süzmə, boyanmış yumurta, müxtəlif meyvələr, qoz, fındıq və s. mütləq olmalıdır. Bu günə qədər gəlib çatmış əsas bayram yeməyi ritual "sumalak"ıdır. Qeyd edək ki, qədim dövrdə Novruzdan bir gün əvvəl bölgədə hava soyuyurdu ki, bu da qocalıb əldən düşmüş qarının son günləri kimi xatırlanır. Orta Asiyada yeni il ritualının sumalakdan başqa yeməyi "quja"dır.

"Sumalak"ın mövcud çörəyin (rizqi-ruz) və rifahın simvolu kimi hazırlanması böyük məharət tələb edirdi. O, təxminən bütün bir sutka boyunca nəğmələrlə, rəqslərlə, əyləncə və oyunlarla müşayiət edilərək hazırlanırdı. Ümumi şəkildə hazırlanan yemək bütün icma üzvlərinə paylanırdı.

Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, təlxəklərin və kəndirbazların çıxışları olurdu. Ömər Xəyyamın məlumatına görə, qeyd etmək lazımdır ki, Novruzun 2600 ildən artıq yaşı vardır. Yenə də həmin müəllifin məlumatına görə, Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanır, hətta dəfn belə növbəti günlərə təxirə salınırdı. Bu bayram o qədər şad və şən bir bayram olmuşdur ki, o günlərdə təkcə təmtəraqlı təntənələr deyil, eyni zamanda xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, qohum və yaxınların məzarları ziyarət edilmiş, bir-birinə qarşılıqlı inam və simpatiya ifadə edilərək ümumbəşəri dəyərlər üstün tutulmuşdur (2, s.47).

Novruz xalqımızın ən qədim milli bayramıdır. Onun tarixi türk millətinin yaşı qədər qədimdir. Bu tarix çoxlarının inanmayacağı qədər uzaq dövrlərdən – zamanın gözlə görünməz, ağılla düşünülməz dərinliklərindən başlanmışdır. Bahar bayramının yaradılışı tanrıyla bağlıdır, onun üstündə tanrı möhürü var. Heç təsadüfi deyil ki, Novruz bayramını Uyqurustanda yaşayan uyğurlardan tutmuş Volqaboyunda, Orta Asiyada, Qafqazda, Krımda, Türkiyədə, Kıp-

rısda, İraqda, Güney Azərbaycanda, Dağıstanda, başqa-başqa yerlərdə yaşayan bütün türklər bayram edirlər (1, s.74). Bu, Novruzun türkün milli bayramı olduğunu təsdiqləyən təkzibolunmaz bir faktdır.

1074-1075-ci illərdə İsfahan, Bağdad, Rey və Nişaburda rəsədxanalar qurduraraq bir təqvimin təsbitini əmr edən böyük Səlcuqlu sultanı Məlikşah Cəlali təqvimi deyilən bir türk təqvimi hazırlatdırmışdır. Bu rəsədxanalarda Ömər Xəyyam, Əbül Müzəffər İsfirazı, Mömin ən Nəcib əl Vasti kimi dövrün alimləri işləmişdir. Qısa bir müddət işlənən (Məlikşahın ölümünə qədər) bu təqvimə Sultanın adına görə "Cəlaliyə", "Tarixi-Cəlali" və ya "Tarixi Məliki" adları verilmişdir. Günəş ilini əsas götürən Cəlali təqvimində günəşin qoç bürcünə girdiyi gün (Novruz) ilbaşı olaraq qəbul edilmişdir. Səlcuqlulardan sonra bölgədə hakim olan Elxanilərin zamanında bu təqvim üzərində düzəlişlər edilmiş və "Tarixi Elxan" adı verilən bir təqvim meydana gəlmişdir. 1925-ci ilin 31 martına qədər bu türk təqvimi İranda işlənmişdir. Məlikşahın hazırlatdırdığı Cəlali təqvimi Əfqanıstanda son zamanlara qədər istifadə olunmuşdur. Bugünkü İran və Əfqanıstanda ilbaşını Novruz olaraq qəbul edən təqvim Cəlali adlı türk təqviminin dəyişik bir şəklidir. Qazax xalq təqvimində mart ayının adı Naurızdır. Bu ay ilin birinci ayıdır və mart ayının 22-dən başlanır. Keçmiş hicri təqviminə görə gecə ilə gündüzün bərabərləşdiyi həmin gün köhnə yeni il xalq təqvimində qalır və Naurız toy adı ilə qeyd olunur. Həmin gün bir sıra Ön və Orta Asiya ölkələrində qədim zamanlardan bu günədək yeni ilin başlanğıcı olaraq bayram edilməkdədir. Novruzun kökləri, ritualları və təbiətlə bağlı izlərinin zərdüştlük Yeni ilindən gəldiyi haqqında mülahizələr vardır. İnanclara görə, həmin gün xalq qışın əziyyətlərindən xilas olur, mal-qarasını saxlamaq üçün daha rahat şərait yaranmasına sevinir. Naurız üçün hər bir ailə öncədən yeddi ənənəvi ərzaqdan təşkil olunan ritual yeməkləri (naurızdık) hazırlayır. Qazaxlar həmin yeməklərlə il ərzində qidalanmağa ümid edirlər. Naurız şənliyi üç gün davam edir. Bu müddət ərzində bütün aul bir-birini təbrik edir, xoşbəxtlik və rifah arzulayırlar. Qazaxlarda Naurız qış və yazın simvolik mübarizəsini təcəssüm etdirən bir qız və oğlanın aytısları ilə başlanır və xalq oyunları,

uşaqların, gənclərin, qadınların və yaşlıların aktiv iştirak etdiyi yarışlarla tamamlanır. Naurızdan başqa mövsümi xarakter daşıyan və ildə iki dəfə yaylaq-qışlaq köçü ilə bağlı olaraq keçirilən mərasimlər də vardır. Bunun da oyun və yarış ünsürləri Naurız toyu ilə bənzərdir.

Novruzun əkinçilik təqvimi ilə bağlı olması haqqında da məlumatlar vardır. Belə ki, bu bayram şimal yarımkürəsində 20-21 martda baş verən yaz bərabərləşməsi ilə əlaqələndirilir. Təbiətin oyanması, canlanması, bitkilərin yenidən öz yaşıl rənginə bürünməsi min illər boyu müşahidə olunmuş və təcrübədə təsdiqlənmiş bir gerçəklikdir. Belə bir yeniləşmə gününün başlanğıcı şəmsi-günəş təqviminin ilk ayının ilk gününə (21 mart) təsadüf edir. Buna görə də həmin günü Novruz (yeni gün) adlandırıblar. Böyük mütəfəkkir Biruni bu ili ilk ayı olan fərvərdindən başlayaraq yazır: Novruz yeni ilin ilk günüdür və farsca yeni gün deməkdir.

Maqların tərtib etdiyi qədim Avesta təqviminə görə, ilin uzunluğu 360 gün hesab olunmuş, dəqiqlik itməsin deyə, ilə hər altı ildə bir ay, hər yüz, iyirmi ildə isə daha bir ay əlavə edilmişdir. Məhz 505-ci ildə, T.Daranın dövründə bərpa edilmiş Zərdüşti salnaməsinə görə ilin uzunluğu 365 gün hesab edilmiş, ilə hər dörd ildə bir gün, hər 120 ildə bir ay əlavə edilmişdir.

1) Novruz on iki min il öncə yaranmışdır. Bu fakt Qobustan qaya rəsmlərindəki günəşi qarşılama arxaik ritual təsvirlərinə əsaslanır;

2) Novruzun yaranması beş min il öncəyə aiddir. Bu fakt Şumer abidələrindəki məlumatlara əsaslanır. Çünki orada mövsümlə bağlı mərasimlərdən bəhs olunmuşdur. Bunun bəzi ünsürləri "Bilqamıs" dastanında da müşahidə olunur. Burada bəhs olunan mərasimin Novruzla bəzi bənzərlikləri vardır. Bizcə, bunlar daha çox tipoloji xarakterlidir.

3) Novruz iki min altı yüz il öncə yaranmışdır. Bu fakt Novruzu Zərdüştliklə əlaqələndirir. Belə ehtimal edilir ki, Novruz Zərdüştlik dininin bayramıdır və ya o zaman tətbiq edilmiş təqvim bayramıdır. Əski təqvimə görə Novruz fərvərdin ayının biri deyil və ya başqa deyilişlə, Novruz mart ayının iyirmi birində olmamışdır.

4) Novruz 935 il öncə indiki vaxtında, yəni fərvərdin ayının birində və ya mart ayının iyirmi birində keçirilməyə başlamışdır. Bu Səlcuqlu sultanı Məlikşahın 1075-ci ildə hazırlatdırdığı və "Cəlali" təqvimi kimi tanınan rəsmi təqvimi ilə hesablanan tarixdir. Amma bu təqvimdən öncə də Novruz bayramının (həm də Novruz adı ilə) keçirilməsi haqqında yazılı qaynaqlarda məlumatlar vardır.

Novruzun yaranması ilə bağlı mifoloji və əfsanəvi məlumatlar da vardır. Bu əfsanələrin içində müxtəlif xalqların əski təsəvvürləri öz ifadəsini tapır. Məsələn, fars mifologiyasının bir sıra obrazları Kəymurəs, Cəmşid və b. ilə bağlı əfsanələr Novruzla əlaqələndirilir. Digər tərəfdən Novruz Zərdüştlüklə bağlı mərasimlərə yaxınlaşdırılır. Məsələn, Zərdüştlüyün dini mərasimi olan "Hörmüz" bayramı Novruzla qarışdırılır. Onların adlarındakı bənzərlik də onların genetik əlaqəsi kimi göstərilir. Əlbəttə, bu bayramlar arasında bənzərliklər vardır, amma bunlar daha çox tipoloji və ya unversali xarakterlidir. Çünki bayram üçün hələ dünya qloballaşmamışdan çox-çox öncə, hətta qədim zamanlardan qlobal komponentlər mövcud olmuşdur. Belə komponentlər ritual nəzəriyyəsini nəzərə almayan araşdırıcılara bayramın etnik mədəni səciyyəsini aydınlaşdırmağa imkan vermir. Hansı tərəfindən baxırsansa bax, bayramlar bir-birinə bənzəyəcəkdir. Fərqlilikləri müəyyənləşdirmək üçün isə ilk öncə milli mərasim mədəniyyətini arxaik ritual əsaslarını nəzəri metodlar və prinsiplərlə araşdırmaq lazımdır (2, s. 51).

Novruzla bağlı elmi və bədii mətnlər onun türk xalqlarında o cümlədən, azərbaycanlıların məişətində ən şərəfli keçirilən bayram olduğu məlum olur. Düzdür, islam mədəniyyətindən sonra, yəni türklərin islamı qəbul etdikdən sonra periaritet təşkil edən bayramlar əsasən Qurban və Ramazan bayramları olmuşdur. Tarixiliyinə görə isə Novruz bayramı xalqımızın daha qədim bayramı hesab olunur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Nəbiyev A. Novruz. B, 1989.
2. Xəlil A. Novruz bayramının arxaik ritual əsasları
3. İsmayılov H. Novruz bayramı, tarixi-mədəni mahiyyəti və semantik strukturu. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. N XXXI, B, 2009.
4. Gəncəvi N. İskəndərnamə. B, 1983.
5. Xəyyam Ö. Novruznamə, Taşkent, 1987.
6. Gökmen N. Nevruz türk bayramıdır
7. kaşğarlı M. Divani-Lüğət-it Türk
8. Biruni Əbu Reyhan. Asarul Bagiye. Taşkent 1975.
9. Nizamülmülk. Siyasətnamə. B.,1989.
10. Çəmnzəminli Y.V. Azərbaycanda zərdüşt adətləri. B., 1977.
11. Славянский и балканский фолклор. Обряд и текст. Я.., 1969.
12. Cəfərli M. Heydər Əliyev və milli-mənəvi irs. B., 2000.
13. Sadıq İ. Bahar bayramı şumer qaynaqlarında. B., 2009.
14. Seyidov M. Yaz bayramı. B., 1990.